# X sinfin Azərbaycan tarixi dərslərindən istifadə etməklə şagirdlərdə fəal həyat mövqeyinin formalaşdırılması

**Rəvanə Faiq qızı Cəbrayılova**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Bakı Dövlət Universiteti*
**E-mail:** ravana697@gmail.com

**Rəyçilər:** p.ü.e.d.,prof. L.N. Qasımova,
p.ü.f.d. R.R. Məmmədzadə

**Açar sözlər:** Azərbaycan tarixi, Azərbaycan tarixi dərsləri, fəal həyat mövqeyi, fəal həyat mövqeyinin formalaşdırılması, şagirdlərin fəal həyat mövqeyi

**Ключевые слова:** история Азербайджана, уроки истории Азербайджана, активная жизненная позиция, формирование активной жизненной позиции, активная жизненная позиция учащихся

**Key words:** history of Azerbaijan, lessons of history of Azerbaijan, active life position, formation of active life position, pupils' active life position

Yuxarı sinif şagirdlərində fəal həyat mövqeyinin formalaşdırılması məqsədilə bir çox vasitələrdən istifadə olunur. Əvvəla, nümunəvi ailələrdə bu istiqamətdə işlər valideynlər və ailənin digər yaşlı üzvləri tərəfindən aparılır. Çalışırlar ki, övladları, istər qızları, istərsə də oğulları fəal olsunlar, yaranmış hər hansı vəziyyətdən çıxış yolu tapa bilsinlər, özlərini itirməsinlər, daha çox müstəqil olsunlar, müəyyən mövqeyə yiyələnsinlər, öz mövqelərini müdafiə etməyi bacarsınlar. Buna müvəffəq olduqda yüksək nəticələr alınır, övladları gələcəkdə fəal həyat mövqeyi qazanırlar. Həyat onlar üçün maraqlı, mənalı, xoş, fərəhli olur, insanlara sevincli həyat bəxş edir. Onlar həm qurduqları ailədə, həm də cəmiyyətdə hörmət və nüfuz qazanırlar.

İkinci istiqamət uşaq bağçası ilə bağlıdır. Burada da məktəbəqədər yaşlı uşaqlar ibtidai şəkildə də olsa vətəndaşlıq dərsləri keçirlər. Ailədə başlanmış tərbiyəvi işlər tərbiyəçilər tərəfindən davam etdirilir. Onlar da çalışırlar ki, uşaqlar qapalı, qaraqabaq, adamayovuşmaz olmasınlar, kollektiv daxilində, özlərinin və kollektivin mənafeyi naminə, qarşılıqlı yardım şəraitində yaşayıb fəaliyyət göstərməyə hələ məktəbəqədər yaşdan alışsınlar.

Üçüncü istiqamət ümumtəhsil məktəbi ilə bağlıdır ki, burada təlim prosesində ayrı-ayrı fənlərin tərdisi prosesində, bu və ya digər mövzu öyrənilərkən fəal həyat mövqeyinin tərbiyə olunması üzrə işlər görülür. Başqa sözlə, mövzuların tərbiyəedici imkanları nəzərə alınır. Bu sahədə fənn müəllimlərinin üzərinə mühüm vəzifə düşür.

Dördüncü istiqamət sinifdənxaric tədbirlərlə, beşinci istiqamət məktəbdənkənar tədbirlərlə bağlıdır. İstər sinifdənxaric, istərsə də məktəbdənkənar tədbirlər məktəblilərdə, o cümlədən də yuxarı sinif şagirdlərində fəal həyat mövqeyinin formalaşdırılması baxımından zəngin imkanlara malikdir.

Biz bu məqalədə təlim prosesinin imkanlarını, özü də yalnız X sinfin Azərbaycan tarixi dərslərinin imkanlarını araşdırmağı qarşımıza məqsəd qoymuşuq. Həm də bütövlükdə X sinif üzrə bütün mövzulara münasibət bildirmək mümkün olmadığından yalnız bir mövzunun tərbiyəedici imkanları üzərində dayanacağıq.

"Azərbaycan XVI-XVIII əsrlərdə" X sinfin Azərbaycan taarixi dərsliyindəki mövzulardan biridir. Bu mövzu Azərbaycan dövlətçilik tarixində xüsusi yer tutan Səfəvi dövlətinə həsr

edilmişdir. Səfəvi dövlətinin yaradıcısı Şah I İsmayılın fəaliyyəti diqqət mərkəzinə gətirirlir. Fəal həyat mövqeyinin aşılanması baxımından bu mövzunun özünəməxsus əhəmiyyəti vardır. Mövzunun tədrisinə müəyyən müddət qalmış müəllim şagirdlərə Əzizə Cəfərzadənin "Bakı-1501"; Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü"; Əlisa Nicatın "Qızılbaşlar" romanlarını oxumağı tapşıra bilər. Bu işi belə də qurmaq mümkündür: müəllim şagirdlərin bir qisminə Əzizə Cəfərzadənin, bir qlsminə Fərman Kərimzadənin, bir qisminə Əlisa Nicatın romanını oxumağı tapşırır. Lakin bu, bir həqiqətdir ki, elə şagird tapılacaq ki, dörd romanın hər birini də oxuyacaqdır.

Ədəbiyyat dərsləri ilə üzrə deyil, məhz Azərbaycan dərsləri ilə bağlı bu romanların oxunması hansı zərurətdən irəli gəlir?

Məlum olduğu kimi, İsmayıl hakimiyyətə 13 yaşında gəlmişdir. Həmin romanlarda onun uşaqlıq illəri və hakimiyyətdə olduğu dövr canlandırılır. Başqa sözlə, onun fəal həyat mövqeyinə necə yiyələnməsi barədə şagirdlərdə əyani təsəvvür yaradılacaqdır. Şah İsmayıl 1487-ci il iyulun 14-də Ərdəbildə anadan olmuş, 1524-cü il mayın 23-də Təbrizdə dünyasını dəyişmişdir. Cəmi 38 il yaşamış bu dahi tarixi şəxsiyyət çox böyük qüdrətə malik idi, böyük dövlət xadimi, hökmdar, diplomat, sərkərdə, istedadlı şair olmuşdur. Şah I İsmayılın 1501-ci ildə əsasını qoyduğu Səfəvi dövləti 1736-cı ilədək yaşamışdır. 1509-cu ildə Şah I İsmayıl İran, Azərbaycan, İraq, Şərqi Anadolu və digər əraziləri vahiq dövlət şəklinə gətirmişdi. Göründüyü kimi, qısa ömür sürməsinə baxmayaraq, özünə ölməzlik qazanmış, yaratdığı Səfəvi dövləti uzun illər mövcud olmuşdur.

Fərman Kərimzadənin "Xudafərin körpüsü" romanının fəsillərindən biri "Dəmir ağacdan asılan beşik" (I hissə. Proloq) adlanır. Həmin hissədə 7 yaşlı İsmayıl təsvir olunur. Şah İsmayıl Şeyx Heydərin oğlu, Ağqoyunlu hökmdarı Uzun Həsənin nəvəsi, dövrünün adlı-sanlı diplomatı Sara xatunun nəticəsi idi. İsmayılın anası Aləmşahbəyin anası Travzon hökdarının qızı Teadora (Dəspitə xantun, Uzun Həsənin arvadı) idi.

Romanın "Körpə dustaqlar" adlı hissədə Ağqoyunlu hökmdarı Sultan Yaqubun öz bacısı Alamşahbəyimi və onun azyaşlı üç övladını zindana saldığı təsvir olunur. Bu hissədə İsmayılın və qardaşlarının dustaqlıq həyatı ilə tanış olmaq mümkündür: "Səkkiz behişt" sarayında o (*Alamşahbəyim – R.C.)* qardaşı ilə üz-üzə gələndə kövrəldi. Gözləri doldu. Gözləyirdi ki, qardaşı ona başsağlığı verəcək, onun dərdini yüngülləşdirəcək. Amma Sultan Yaqub onun qara libasına kinayə ilə baxdı:

– O dərviş övladından ötəri göz yaşı da tökürsən?

– Qardaş, bu sənin işindi? Heydəri sən öldürtdürmüsən?

– O, öz ölümünə tərəf atını dördnala çapırdı. Sən mənim ana ayrı olsa da, ata bir bacımsan. Qardaşını başa düş. O, taxtıma göz dikmişdi. Qoşun yığırdı. Mən gec tərpənsəm, sən ərinlə mənim matəmimi saxlamaq barəsində danışacaqdın (s. 35).

– O, tac hərisi deyildi. Onun başının tacı vardı. Ölübsə də yenə tac onundu.

– Tac? Hanı onun tacı?

– Qarşında dayanıb. Yaxşı bil ki, onun tacı həmişə hündürdü. Heç vaxt ayaq altına düşməyəcək.

Ucaboy, heybətli, qorxunc Sultan Yaqub zərif, gözəl bacısının başı üstündə dayandı.

– Mənim düşmənlərimə tac olan bacım. Bacı kimi gözümün işığısan. Amma sənin nə ərin olub, nə uşaqların.

Aləmşahbəyim qardaşının ayaqlarını qucaqladı.

– Qardaş, qurbanın olum, çıxar xəncərini, doğra məni. Ancaq uşaqlarıma toxunma.

– Qurd balası qurd olar.

– Bəs mən? Onlar mənim də övladlarımdır. Məni öldür, o körpələrə qıyma.

Atalarını öldürdün bəs deyilmi? Körpələr sənə nə eləyib? Axı sən onların dayısısan.

Sultan Yaqub fikirləşdi: "Onların atalarının qətlinə mən fərman vermişəm. Onlar böyüyəndə atalarının düşmənini axtaracaq, dayılarına qəddar kəsiləcəklər. Onlar hələ körpədi. Bir-bir böyüyüb ərsəyə çatdıqca onları götürmək çətin deyil".

– Yaxşı. Sən deyən olsun. Hökmümü dəyişirəm. Nə qədər ki, mən taxtdayam, onlar həbsdə olacaqlar.

– Qardaş, onların ən böyüyünün hələ heç on dörd yaşı da yoxdur. Onlardan niyə belə ehtiyat eləyirsən? Əlləri qılınc tutmur.

– On dörd yaş da bu nəslin övladları üçün bəsdir. Böyük, on dörd yaşlı oğlun Sultanəli artıq Şeyxdi. Müridlər hamısı ona biyət eləyir. Bu, qorxu deyil? Tək sənin xətrinə zindana gedəcəklər (s. 36).

Bir neçə gündən sonra Aləmşahbəyimi də oğlanları ilə bərabər indi salındıqları qalaya gətirdilər. Artıq dörd il idi ki, həbsdə idilər. Bu qaladan heç yerə çıxmamışdılar. Qalanın qapıları onlara ərzaq gətiriləndə açılırdı" (s. 37).

Romanın "Lahicanda mərasim" adlanan fəslində Ağqoyunlu hökmdarı tərəfindən 8 yaşlı İsmayılın axtarılmasından söz açılır. Bu balacanı taxt-tac üçün təhlükə hiss etdiklərindən onu öldürmək istəyirlər. Artıq nə Sara xatun, nə Uzun Həsən var. İsmayılın qardaşı Sultanəli də öldürülüb. Alamşahbəyim ismətini qorumaq üçün zəhər içib. İsmayılı Mirzə Əli, Lələ bəy və başqaları gizlədir, ələ vermirlər. Diqqət yetirək:

"– Qasım bəy, bu üç yüz atlıyla axtardığın İsmayılın neçə yaşı var?

– Gərək ki, səkkiz yaşındadı.

– Səkkiz! – deyə Mirzə Əli gülümsədi. – Ağqoyunlu padşahlığı məqribdən məşriqə uzanır. Onun ordusunun qabağında dayana biləcək ordu yoxdu. İndi bu səkkiz yaşındakı uşaq nədi ki, onu belə əlimyandıyla axtarırsınız?

– Bəlkə böyüyəndə bir iş qarışdıracaq. Düşməni gərək bələkdə boğasan.

– Cavansan, mən qocanın bir məsləhətini də eşit. Deyirlər ki, uşaq sirdi, mö'cüzədi. Qeybə çəkilib. Onların ocaqlarına inanmayanlar sonradan peşman olub.

Kim o nəslə sataşıbsa xeyir aparmayıb. Sultan Yaqub rəhmətlik onlara pislik elədi, anasının verdiyi zəhərdən öldü (s. 129).

– Mirzə Əli, söbhəti ora-bura atma. İsmayılı tap ver.

Mirzə Əli pərt oldu, həm də gördü ki, onu bu söz-söhbətlə aldada bilməyəcək. (s. 130).

– Yaxşı, Qasım bəy, Qur'ani-şərifə inamın var da?

Qasım bəy dedi:

– Qura'ni-şərif yolunda balalarımın başını kəsərəm, "uf" da demərəm.

– Çox gözəl, çox pakizə. Qur'ana and içsəm ki, İsmayıl burada yoxdu, onda mənə inanarsan?

– Yaxşı, Qur'ani-şərifi gətir, and iç, inanım.

– Qur'ana and içmək belə yüngül, asan işdi? Oturub çörəyinizi yeyin, mən hamama gedim, yuyunub pak olum, kəfən geyim, bütün Lahican əhlini yığaq məscidə, axundların, üləmaların yanında sənə and içim, razısan?

...Bütün Lahican əhli cümə məscidinə yığışmışdı. Minbərin qabağında ən qədim Qur'anı gətirib rəhilə qoydular. Mirzə Əli əyninə ağ kəfən geymişdi. Mirzə Əli namaz (s. 130) qılırmış kimi Quranın qabağında diz çökdü. Onu götürüb dodaqlarına yaxınlaşdırıb öpdü, sonra sağ əlinin beş barmağını da onun dəri cildinə basıb üzünü Qasım bəyə tutdu:

– Qasım bəy, and olsun bu Qurani kəbirə, Qurani-şərifə ki, Şeyx Heydər oğlu İsmayıl Biyəpiş torpağında yoxdur. Bundan sonra o Quranı bir daha öpüb yerinə qoydu və ayağa qalxdı.

Bu vaxt Lələ bəyin dəmirağacdan asdığı beşikdə uzanan İsmayıl dərin və şirii bir yuxuya getmişdi" (s. 131).

Müəllim ümumiləşdirmə aparır. İsmayıl himayədarlarının köməyilə düşmənlərindən qoruna-qoruna müəyyən yaşa çatır. Lakin o, boş dayanmır. Qılınc işlətməyi, qurşaq tutmağı öyrənir, bilik, savada yiyələnir. Qızılbaş sərkərdələri – Lələ bəy, Dədə bəy, Qara Piri bəy, Bayram bəy, İlyas bəy, Xadim bəy, Əbdi bəy, Məhəmməd bəy Ustaclı ona dəstək dururlar. İsmayıl müstəqilliyi, cəsurluğu, fəallığı, qorxmazlığı ilə fərqlənir. Azərbaycanın ən qüdrətli hökmdarı olur. Hakimiyyəti dövründə Azərbaycan tarixində ilk dəfə Azərbaycan dilini dövlət dili elan edir.

Dərsdə eyni zamanda Şah I İsmayılın Osmanlı sultanı, Konstantinopolun fatehi Sultan II Məhmətin oğlu Sultan II Bəyazidlə və sonradan onun oğlu Sultan Səlim Yavuzla münasibətləri nəzərlən keçirilir. Məlum olduğu kimi, Şah İsmayılın Sultan II Bəyazidlə münasibətləri dostcasına olmuşdu və normal axarda gedirdı. Lakin Sultan II Bəyaziddən sonra hakimiyyətə gələn Sultan Səlimlə münasibətlər lazımı səviyyədə olmadığından bu, iki dövlət arasında müharibəyə səbəb oldu.

**Məqalənin aktuallığı.** Şagirdlərdə fəal həyat mövqeyinin formalaşdırılması pedaqoji təfəkkür şəraitində aktuallığı ilə seçilir.

**Məqalənin elmi yeniliyi.** X sinfin Azərbaycan tarixi dərslərindən istifadə etməklə şagirdlərdə fəal həyat mövqeyinin formalaşdırılması diqqət mərkəzinə gətirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə dissertant və doktorantlar, magistrantlar üçün əhəmiyyətli ola bilər.

## Ədəbiyyat

1. T.Əliyev, R.Ağalarov, N.Quliyev, E.Qasımov, F.Babayev, E.Hüseynov, K.Əsədov, R.Məmmədov. Azərbaycan tarixi (Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik). Bakı, Şərq-Qərb, 2017, 200 s.
2. F.Kərimzadə. Xudafərin körpüsü (Tarixi roman). Bakı, yazıçı, 2020.

**Р.Ф. Джабраилова**

## Формирование активной жизненной позиции у учащихся на уроках Истории Азербайджана в X классе

## Резюме

С целью формирования активной жизненной позиции у старшеклассников используются ряд средств. В процессе преподавания отдельных предметов в учебном процессе в общеобразовательной школе проводится работа по формированию активной жизненной позиции при изучении той или иной темы. Иными словами, учитываются воспитательные возможности тем. Учителя-предметники должны сыграть важную роль в этой области.

В представленной статье мы стремимся изучить возможности учебного процесса, а точнее возможности уроков Истории Азербайджана в X классе. Мы также сосредоточимся на образовательных возможностях некоторых тем, поскольку невозможно комментировать все темы в X классе в целом.

**R.F. Cəbrayılova**

## Formation of an active life position among students in the lessons of the History of Azerbaijan in the X grade


### Summary

In order to form an active life position among high school students, a number of means are used. In the process of teaching individual subjects in the educational process in a general education school, work is carried out to form an active life position in the study of a particular topic. In other words, the educational possibilities of the topics are taken into account. Subject teachers have an important role to play in this area.

In the presented article, we strive to study the possibilities of the educational process, or rather the possibilities of the lessons of the History of Azerbaijan in the X grade. We will also focus on the educational opportunities of some topics, as it is not possible to comment on all topics in grade X in general.


**Redaksiyaya daxil olub:** 12.10.2020